ədalət.- 2020.- 31 oktyabr.- S.16.



Ələsgər Talıboğlu
Şair - publisist, AYB-nin üzvü,
Məmməd Araz mükafatı laureatı

## İçimdə bir şeir hayqırır

İçimdə bir şeir hayqırır...
Nə anı, nə zamanı bəlli,
Buraxmır ki... buraxmır...
Yapışıb yaxamdan ikiəlli...
Hər axşam, hər sabah
ağrısı- acısı hey yandırır məni.
Yandıra- yandıra
amansız sancısı qandırır məni.
Qıvıra- qıvıra salır haldan- hala,
öfkəmi, səbrimi yola- yola...

İçimdə bir şeir hayqırır...
Göy üzü bir ovuc ulduz,
hayqırtılar isə hələ də sonsuz.
Hayqıra- hayqıra gəlirəm deyir.
İçimi içimdə qaynadan şeir,
içimi içimdə oynadan şeir...

İçimdə bir şeir hayqırır...
Səsini məndən başqa
Duymur ki kimsə.
Bilməsəm də necə bir
nəsnə olacaq,
gəlirsə qoy gəlsin,
bəlkə söndürərək yanqımı
həməncə yurd sevdalı
qəlbimə təşnə olacaq...

## Musa Uruda

Nə ülvi sevgidir, hər gecə- gündüz,
Qayası səsləyir, daşı çağırır.
Nə dərə susmaqda, nə çiçəkli düz,
O şiş zirvələrin qaşı çağırır.

Çağırır dərd süzən o "Korabulaq",
Həsrəti min qalaq, qəmi min qalaq...
Kövrək harayına verdim də qulaq,
Axan gildir- gildir yaşı çağırır.

Çağırır gəzdiyim o yal, o yamac,
Sevdası köksümdə ox... qulac-qulac...
Ha da qəhərlənib, ha da... könül ac,
Süsənli, laləli döşü çağırır.

Çağırır susmayan çağlar "Kəhriz"i,
Min ləpir saldığım hər cığır, izi...
Çağırır çatdığı füsunlu közü,
Keşkəsi, gümanı, kaşı çağırır.

Çağırır ümidin göynəyən dili,
Çağırır həsrətin çuğlayan seli...
Çağırır zəfərin əsəcək yeli,
Nə olsun, bir az da "naşı" çağırır.

Çağırır o "Demlər", o "Ardıclıdağ",
Qəlbimi fəth edən hər təpə, hər dağ.
Talıboğlu, eşqin sən gücünə bax,
O "Söyüdbulaq"ın başı çağırır.

## Ey Vətən

Ey Vətən, köksün dərd axarı,
Ah- naləmə dilim yetməyir.
Aşır məni, məndən yuxarı,
İstəsəm də əlim yetməyir.

Hər ağrın- acın dünya boyda,
Məlhəm edəmmirəm, nə fayda...
Gəl, bu yalanlara az uy da,
Yumaq üçün selim yetməyir.

Bunca yükü daşımaqdansa,
Hər gün yara qaşımaqdansa...
Talıboğlu, yaşamaqdansa,
Uğrunda, bil, ölüm yetməyir.

## Mən şeir yazmıram

*Mən şeir yazmıram*
*baş qatmaq üçün.*
*Abay Kunanbayev*

Mən şeir yazmıram...
anları öldürüb
gün yırtmar üçün,
ötürüb gərdişi boşu- boşına,
zamanın bətnindən
hey sırtmaq üçün...
Mən şeir yazmıram...
şöhrətin peşində çapam atımı,
ucalıb göylərə
zirvə fəth edəm,
ya da qanıq köpəklər tək,
kiməsə yalmanıb
yersiz mədh edəm...
Mən öz dərdlərimdən öncə,
buncalıq arxada buraxdığım
ayca, güncə
bələnə- bələnə.. sarına- sarına
dərddən geydiyim kürkə
yazıram daha çox
qoynunda doğulduğum,
mayasından yoğrulduğum
Vətən torpağının
ağrı- acısınnan,
dərdi- sərindən...
Yana- yana
hərf- hərf, heca- heca, söz- söz,
misra- misra, bənd- bənd, şeir-şeir
haqqın işığında,
əyri deyil, təkcə düz
ağlayıram,
dağlanan köksümü
bir daha maşa ilə
dağ- dağ dağlayıram...
Və dağlaya- dağlaya da
Vətən oğlunu
qarı düşmənimizdən
qisasa səsləyirəm.
Mən şeir yazmıram...
anbaan... zaman- zaman
könülləri böyük qələbənin,
müqəddəs zəfərin
sevdasına süsləyirəm...

## Şanlı bir gün... şanlı tarix...

Şanlı bir gün... şanlı tarix...
27 sentyabr...
Bu payız səhəri
dolub daşdı,
öz məcrasını aşdı
vüsala susamış,
yatağına sığmayan səbr...
Vətən oğlu- Azərbaycan əsgəri
qarı düşmənimizin-
"dağılmaz" istehkamını,
alaraq ilk kamını
dəlib keçdi.
"Sarsılmaz" mövqelərini
"topdağıtmaz" səflərini
tarmar edə- edə,
altını üstünə çevirə- çevirə
bölüb keçdi...
Otuz ildir ki,
millətimi bir heç sayan
bu dünyaya gülüb keçdi...
Göstərə- göstərə
açılmasına olmayan gərək
bir aksioma tək
isbatını,
başladı yurdumuzun
zəfər dolu büsatını...
Uğur olsun, Vətən oğlu!...

## Bir körpənin gözündə

Çiçək açıb tər- təzə
bir körpənin gözündə,
Ayaq açıb o bu gün,
Günəş gülür üzündə...

Gülüşləri bir udum,
Hər sevinci bal dadım...
Yeriyir addım- addım,
Taqət tapıb dizində.

Yürüyür şirin- şirin,
Sevdası necə dərin...
Talıboğlu, bir görün
Nə aparır özündə....

## Salam olsun

*İş yoldaşım Vüqar Şahmurovun*
*şəxsində döyüşə gedənlərə*

Qarabağda döyüşməyə
Gedənlərə salam olsun.
Orda gərdiş dəyişməyə
Gedənlərə salam olsun.

Almaq üçün qisasını,
Ucaldaraq gur səsini.
Ötə- ötə nəğməsini,
Gedənlərə salam olsun.

Yağının dərsin verməyə,
Onunçün məhbəs hörməyə.
Gül baxçadan gül dərməyə,
Gedənlərə salam olsun.

Düşmənə məzar qazmağa,
Fələk yazanı pozmağa.
Ən şanlı tarix yazmağa...
Gedənlərə salam olsun.

Doğacaq nurlu danıyla,
Axılası al qanıyla...
Talıboğlu, ad- şanıyla,
Gedənlərə salam olsun.

## Cəbrayılım azad oldu

*Cəbrayıllı yazar dostlarım*
*Nazir Çərkəzoğluna, Əjdər Yunus Rzaya*
*və Qorxmaz Abdullaya*

Gözün aydın, qan qardaşım,
Cəbrayılım azad oldu.
Nəm içində kiprik, qaşım,
Cəbrayılım azad oldu.

O yerləri görməsəm də,
Bənövşəsin dərməsəm də.
Qəlbə çələng hörməsəm də...
Cəbrayılım azad oldu.

Qoymasam da üz daşına,
Zirvəsinin sərt qaşına.
Bax, sevincdən göz yaşıma,
Cəbrayılım azad oldu.

Salmasam da köksündə iz,
Çatmasam da qorundan köz...
Durmasam da bir üzbəüz,
Cəbrayılım azad oldu.

Öpməsəm də bulağından,
Keçməsəm də hər dağından.
Kim qurtarar qınağından,
Cəbrayılım azad oldu.

Talıboğlu yurd sevdalı,
Vətən oldu tək amalı...
Bu gün necə şuxdur halı,
Cəbrayılım azad oldu.